Aqrar Xidmətlər
Agentliyi

# ŞƏKƏR ÇUĞUNDURU



# Əhəmiyyəti

- Azərbaycanda yeganə **şəkər** istehsalı mənbəyidir
- Ondan həm **şəkər** istehsalı üçün, həm də heyvandarlıqda yem kimi istifadə olunur
- Tərkibində 18-22 % şəkər vardır
- Yemlilik dəyərinə görə yem çuğundurundan 2 **dəfə** üstündür
- Yarpaqları qida elementləri ilə daha zəngindir
- Yarpaqlarda 2-3 % zülal, 0,4 % **yağ** və müxtəlif vitaminlər vardır
- Şəkər çuğundurunun 1 sentneri 26 yem vahidinə, yaxud 1,2 kq proteinə bərabərdir
- Yarpağın 1 sentneri isə 20 yem vahidinə bərabərdir. Yem çuğundurunda isə müvafiq olaraq 12 və 9 yem vahidinə bərabərdir
- Şəkərin emalından sonra zavodlarda çoxlu tullantılar alınır ki, bu tullantılardan spirt, qliserin, pektin kleyi istehsalı üçün istifadə edilir
- Eyni zamanda bu tullantıdan heyvandarlıqda yem kimi və təsərrüfatlarda üzvi gübrə kimi də istifadə olunur
- Tullantının 1 sentneri 85 yem vahidinə bərabərdir

# Şəkər çuğundurunun səpini

- Toxumlar cərgəarası 45-50 sm, bitki araları 10-15 sm olmaqla, ağır torpaqlarda 2-3 sm, yüngül torpaqlarda isə 4-5 sm dərinlikdə basdırılır
- Hər hektara səpin norması 10-12 kq, dəqiq səpinlərdə isə 6 kq-dır
- Toxumlar 5-6 °C istilikdə cücərir
- Geniş sahələrdə əsasən Kavkas, Taltos sortları və digər hibridləri (Qreqoria $F_1$, Terranova $F_1$, Sereneda $F_1$ və.s) əkilir
- Aprel ayı əkinlərində cücərtilər əmələ gəldikdən sonra **cərgəaraları yumşaldılır**, əsas yarpaq əmələ gəldikdən sonra dibləri doldurulur, tələb olunan sahədə **seyrəltmə aparılır**
- Seyrəltmə əsasən 2-ci əsas yarpaq əmələ gələn dövrdə aparılır



- Seyrəltmədən sonra cərgəaraları yumşaldılır və əlavə yemləmə gübrəsi verilir. Şəkər çuğunduru əkinlərində alaq otlarına qarşı tələb olunan yerlərdə mübarizə tədbirləri həyata keçirilir
- Vegetasiya müddətində bölgələrdən asılı olaraq sahə 4-5 dəfə suvarılmalıdır
- Suya tələbatı vegetasiyanın müxtəlif dövrlərində eyni deyildir.
- Toxumun cücərməsi və kök əmələ gəlmə dövründə bitki suya daha çox tələbat göstəri
- Üzvi maddələrlə zəngin strukturlu həmçinin **zəif turş** və neytral reaksialı (pH=6,5-7,5) torpaqlar çuğundur üçün daha əlverişli hesab olunur
- Digər bitkilərdən fərqli olaraq torpaqdan daha cox miqdarda qida maddələri mənimsəyir

Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A
Çağrı Mərkəzi **1652**
info@axa.gov.az
**www.axa.gov.az**

Aqrar Xidmətlər
Agentliyi